**Sona Vəliyeva**

# *Dünya Tanrı biçimdədir*

"Vektor" Beynəlxalq Nəşrlər Evi
Bakı – 2017

**Redaktor: Fərid Hüseyn**

Kitabda yer alan şeirlər 2015-ci ildə "Vektor"
Beynəlxalq Elmlər Akademiyasının Şahmar Əkbərzadə
adına Ədəbiyyat mükafatına layiq görülmüşdür.

**Sona Vəliyeva "Dünya Tanrı biçimdədir"**.
"Vektor" Beynəlxalq Nəşrlər Evi. Bakı, 2017. 200 səh.

"Dünya Tanrı biçimdədir" şeirlər kitabı şairə Sona Vəliyevanın oxucularla növbəti görüşüdür. Kitabda şairənin son illərdə yazdığı şeirlər toplanıb.

ISBN 978 9952 504 68 2

© "VEKTOR" BEA, 2017

# QADIN VƏ VƏTƏNDAŞ RUHU

Azərbaycanın şimal hissəsində, Arazın quzeyində qurulmuş Azərbaycan respublikası öz torpağının ən bərəkətli, ən gözəl bir parçasını itirməsinə, düşmənlərimizə açıq və ya dolayı yollarla yardım etmək istəyən böyük güclərin təzyiqləri ilə üzləşməsinə baxmayaraq, bölgənin və islam dünyasının bənzərsiz bir parçası, kiçik bir özgürlük adası kimi öz həyatını sürdürməkdə və müstəqillik yolu ilə irəliləməkdədir. "Özgürlük adası" sözü kiməsə şişirtmə kimi görünə bilər, çünki demokratiya və azadlıq günün birində tamamlanıb bitən bir iş deyil, o, həyat tərzinə çevrilməlidir və bu baxımdan Azərbaycanın da həll etməli olduğu çoxlu problemləri var. Lakin bu gün Azərbaycanı – islam ölkəsini, demək olar ki, bütün ölkələrdən fərqləndirən bir çox dəyərlər var: dinin siyasiləşməsinə yol verməmək, tolerantlıq, məzhəb çatışmalarından və təb-

liğatından uzaqlıq, Şərq və Qərb mədəniyyətlərinin davamlı dialoqu və qovuşması, qadın azadlığı, islam adına yayılan cəhalətdən uzaqlıq və s.

Bu baxımdan, ölkəmizin başlıca özəlliklərindən biri də qadınlarımızın cəmiyyətimizdə tutduqları yer, onlara verilən yüksək ictimai və mənəvi dəyərdir.

Ana, xanım və ailə başçısı kimi Azərbaycanda daim saygı görən qadın, müstəqillikdən sonra yaranan şəraitdə öz mənəvi, intellektual, yaradıcı gücünü daha parlaq şəkildə nümayiş etdirməyə başlamışdır.

Həm siyasətdə, həm də humanitar sahədə bunun örnəkləri çoxdur. Elmimizin, təhsilimizin, mədəniyyətimizin ağır yükünün böyük bir hissəsini bu gün qadınlar daşıyır.

Xüsusən təhsildə, yaradıcılıq aləmində qadınlarımız daha fəaldır və bunu təsdiq etmək üçün oxuculara təqdim edilən bu kitabın müəllifi Sona xanım Vəliyevanın elmi-ədəbi, pedaqoji və jurnalist fəaliyyətinə göz yetirmək kifayətdir.

Sona Vəliyeva ədəbiyyatşünasdır, filologiya üzrə fəl-

səfə doktorudur, bununla yanaşı, onun jurnalistlik fəaliyyəti, mətbuatımızın "Əkinçi" və "Kaspi" qəzetləri ilə bağlı olan iki mühüm dövrünü diqqətlə öyrənməsi milli ideologiya məsələlərinə həsr olunmuş kitablarının yaranması ilə nəticələnmişdir. "Azərbaycançılıq milli ideologiya və ədəbi-estetik təlim kimi" və "Milli dövlətçilik hərəkatının yüksəlişi və Xalq Cümhuriyyəti dövründə azərbaycançılıq ideyası" monoqrafiyaları dövlətçilik tariximizin və milli ideologiyamızın çox mühüm dövrlərinə və problemlərinə həsr olunmuşdur.

Sona xanımın bir sıra maraqlı ədəbi-tənqidi yazıları, publisistik məqalələri var və jurnalist fəaliyyəti onu qəzet müxbirliyindən uzun fasilədən sonra bərpa etdiyi "Kaspi" qəzetinin təsisçiliyinə qədər yüksəltmişdir. Bu gün "Kaspi" öz "Ədəbiyyat əlavəsi" və həftəlik rus variantı ilə birgə gündəlik mətbuatımızda seçilən bir yerə sahibdir.

Sona xanım ötən il milli mətbuatımızın yaradıcısı olan Həsən bəy Zərdabinin həyat və mübarizəsinə həsr etdiyi irihəcmli "İşığa gedən yol" romanını oxuculara

təqdim etmişdir. O, cümhuriyyət dövrünün maarifçilərinin fəaliyyətinin araşdırılması və oxuculara çatdırılmasında xeyli işlər görmüşdür. Eyni zamanda, “Kaspi” irsinin araşdırılması və nəşri, Hüseyn Cavid yaradıcılığının ölkəmizdə və Türkiyədə nəşri sahəsində ədəbi-ictimai fikrimizi zənginləşdirən, humanitar elmimizə baş ucalığı gətirən böyük işlər görmüşdür və görməkdə davam edir.

Bütün bunlardan əlavə, qələm dostumuz Azərbaycan təhsili üçün son dərəcə əhəmiyyətli olan, yerli pedaqoqların gücünə arxalanan “Kaspi” Təhsil Şirkətinin yaradıcısıdır.

Dediklərimiz şərait və imkan yarananda bir Azərbaycan qadınının necə qol-qanad açdığını, həyat yoldaşına çiyindaş və sirdaş olaraq necə yorulmadan çalışdığını, necə inamla yüksəldiyini çox aydın göstərir.

Sona xanım istedadlı, işıqlı və xeyirxah adamdır və buna görə də hansı işlə məşğul olursa uğur qazanır, yolunu və yerini tapır, bununla yanaşı, bu xüsusiyyətləri cəmiyyət içində ona böyük hörmət qazandırmışdır. O, öz adını, işi-

ni, yaradıcılığını bəsit söz-söhbətlərdən, ixtilaflardan kənarda saxlamağı bacarmışdır; bunun əsas səbəbi onun aydın vətəndaş mövqeyi, milli ideallarımıza bağlılığı və yüksək vətəndaş məsuliyyətidir.

Sona xanım ilk növbədə şairdir. Kitabdakı şeirlər də bunu aydın göstərir.

Poeziya güzgüdür və müəllifinin bütün ruh aləmini, həyatını, yaşam tərzini nümayiş etdirir. Bəlkə, nəsrdə, ədəbiyyatşünaslıqda gizlənmək olar, amma şeir müəllifinin kimliyini və ədəbi qabiliyyətini dəqiq göstərir.

Sona xanım ədəbiyyatın milli-ictimai həyatımızdakı yerini yaxşı bilir və bədii sözün Vətəndaşlıq missiyasını unutmur. Onun poetik ruhu sısqa, sentimental, çətinlik qarşısında öləziyib yıpranan, itən bir ruh deyil. “Aslanın erkəyi, dişisi olmaz” ifadəsinin kökü mərdlikdə, döyüşkənlikdə, torpağa bağlılıqdadır. İnsan sevgisi, millət təəssübü, vətən qeyrəti Sona xanımın şeirlərində xüsusi yer tutur. Bu şeirlərdə ailəyə, uşağa, ocağa bağlı olan bir ananın, qayğıkeş həyat yoldaşının kövrəkliyi var. Eyni za-

manda, onun bəzi şeirlərində milləti iki yüz ildən bəri ağlasığmaz haqsızlıqlarla – parçalanmaq, köçürülmək, kütləvi qırğın, repressiya, işğal, sosial ədalətsizlik – sınağa çəkilən bir vətəndaşın üsyanı və harayı görünür, kitabda bu iki xəttin uğurlu vəhdəti, səsləşməsi var.

Sona xanım klassik ədəbiyyatımızın ruhunu, insan sevgisini haqqa, Tanrıya bağlılığını, sözün əbədiliyinə inamını bir çox şeirlərinin mövzusuna çevirmişdir. Və həmin şeirlər onun "içindəki haqq ruhu"nu qorumaq və insanlarla paylaşmaq istəyinin nəticəsi kimi də dəyərləndirilə bilər. Əslində, ədəbiyyatın və söz sahiblərinin ən mühüm vəzifəsi də budur.

**Sabir Rüstəmxanlı**
*Xalq şairi*

# Tanrı

## Qapına gəldim, İlahi!

Günahımla, suçumla,
Savabımla, borcumla,
Ürək adlı boğçamla
Qapına gəldim, İlahi!

Bir ömür də gül əkdim,
Sevinc verib, qəm çəkdim,
Yerdən öncə mələkdim,
Aldandım gəldim, İlahi!

Ömrüm özüm biçimdə,
Sevgim, duam içimdə,
Yol başladım içimdən,
Qapına gəldim, İlahi!

Sonum əvvələ bəlli,
Üç ağıllım, beş dəlim...
Nə əkmişdim, nə dərim?
Əliboş gəldim, İlahi!

Kimə qaldı yurd yeri?
Əlim çatmır, əl verin...
Ürəyi qəm-nisgilli,
Qapına gəldim, İlahi!

Yol tikana bələndi,
Naxışlar ilmələndi,
İçim – dərd qıfılbəndi
Qapına gəldim, İlahi!

Çox, azım sənə bəlli,
Dua, yazım sənə bəlli,
Etirazım sənə bəlli,
Qapına gəldim, İlahi!

Bir yol açılar, gələm,
Bir gün seçilər, gələm,
Bir gün öncədən biləm,
Deyəm ki, gəldim, İlahi!

***

Şeytan
min hiylə qurdu
bu ayrılığa...
İlahi, tək bir bəhanə göndər
təzədən rastlaşmağa,
təzədən qovuşmağa!

## Əməl dəftəri

Ya yağışlı havada,
ya da qar qapımı alanda,
sübh tezdənmi, bilmirəm,
bəlkə də, ay işığında,
nə vaxtsa,
açılacaq yolla
qapına
gələcəyəm,
İlahi!
Əmanət verdiyin ruhumla,
səndən özgəyə oxunmayan
iki əməl dəftərimlə...
Sənə dönəcəyəm...
Son əvvələ qayıdacaq.

Sonra haqq tərəzisi, tale yazısı,
həyatın ədalət çəkisi,
hər iki dünyanın yaşam ahəngi...
Ömrün üzü üstə çevrilmiş
Tanrı güzgüsü.
Sualın ölçüsü çox böyük:
Allahım,
mən necə yaşadım?
Sağ əlim sol əldən oğurlayıbsa,
ya elə sol əlin etdikləri ağırsa,
bu, mənim suçum,
bu da cəzamı çəkməyə etiraf gücüm...
Hazıram çəkməyə cəzamı,
İlahi!

Yer üzü bizdən,
sol əlimizdən əyilibsə,
pisliklər sol əldən tökülübsə,
daşqına, yanğına, selə dönübsə,
dəyiş, İlahi, vəd etdiklərini,
ver yer üzünə
sağ əlin gətirdiklərini,
dünyamız düzəlsin.
İlahi, sağ əldən toplanan nə varsa,
Yer üzünə səp,
insanlar
xəlq etdiyin kimi təzədən,
təzədən ADAM kimi göyərsin!

**Yallı**

Göy gurultusudur
çalınan,
göy gurultusudur coşan qan.
Daram, daram...
nağaraya vurulan zərbə
içimdə min illərin
tarixinə daş atır.
“Yallı” çalınır.
yaddaş oyanır.
Bu, oyun deyil,
təvafdır, təvaf.
“Ya Allah, ya Allah” –

"Yallı" çalınır, "yallı" ucalır.
Hara qayıdıram,
hardan boylanıram?
Atı ilk ram etməyə
yığılan,
əl-ələ, çiyin-çiyinə
dövrə vuran, sevinən,
çağıran elimdi bu...
"Yallı"m
"Ya Allah" deyir.
Tək çadır dirəyinə,
tək Allah güvəninə,

Allahın gecəsinə,
gündüzünə inanan.
İlk gəmini yaradan,
ilk əkinə başlayan,
yurd qurmağı bacaran
atam, babam, qardaşım,
ilk yurddaşım
birləşib,
əl-ələ, çiyin-çiyinə
"Ya Allah", "Yallı" deyir.
Milyon ildir

Qobustan qayasından
babaların duası
“Yallı”m “ya Allah” – deyir.
Məhrəm əllər, dost əllər,
düşüncələr, beyinlər
birləşib təvaf edir.
Yurd Kəbədi,
ətrafında
sevgi niyyət tutulur,
oğullar təvaf edir.
“Başına dolanım sənin”,

“qurban olum” kəlməsi,
min ilin oxşaması,
laylası, əzizləməsi
indicə kəşf olunur.
Yurd sevgisi yaranır,
yurd nəğməsi oxunur.
Oğuz eli qorunur,
Oğuz oğlu birləşir.
Əl-ələ, çiyin-çiyinə
çinar olur oğullar.
Sərhəd belə qurulur,
torpaq belə qorunur.

Əl-ələ, çiyin-çiyinə,
əl silahlı, dil dualı –
“Yallı” belə yozulur.
“Yallı”m göyə ucaldıqca
sərhədim genişlənir,
Pərən torpağım birləşir,
gedənim geri dönür.
“Ya Allah”lar ucalır,
“Yallı”m duaya dönür.
“Yallı”m Tanrı duası,
“Yallı”m sərhəd qalası.

# Söz

## “OL”dan əvvəlki sözdənəm

Sökülən çuvalda dənik –
Səpilərik düzə-dağa.
Tanrı göyərdər təzədən,
Dən gözlər dəyirman, ağa.

Bəxt yazısın yazan varmış,
Çox istəyən azdan olmuş,
Ömür almasız nağılmış,
Gəlmişik qulaq asmağa.

Mən kiməm, kimim var burda?
Gəldim nəyi axtarmağa?
Dünya yol üstə güzgüymüş,
Gəldim özümə baxmağa.

Nəyin ələk-fələyiyəm,
Boylanıram sağa-sola?
Bəzən öz içimdən keçib
Özüm yol oluram yola.

Bu ev, bu yol yaman tanış,
Yad görünən doğmam imiş.
Söz gəzirəm deyilməmiş
Ocaqda köz saxlamağa.

Əlim göydə, haqq önündə,
Duam içimdən dərində.
İnsan şeytan xislətində
Düşüb şeytandan qabağa.

Torpaq dili, çiçək dili,
Arı dili, pətək dili.
Bir sirr içrə sirrin mini
İzin yoxdur sirr açmağa.

Rəngə bax göy qurşağında,
Sevdası aşiq başında.
Adəm nəfsin savaşında
Uduzdu mələk olmağa.

İçimdə söz, söz də mənəm,
"Ol"dan əvvəlki sözdənəm
Söz ölməsə, mən ölmərəm,
Gəldim sözlə sağ qalmağa.

## Milyon il əvvəl

Yer üzü bomboş idi.
Mənim qəlbim kimi...
Tanrı "OL" dedi.
Sən qarşıma çıxdın...
Mən sən "OL"dum,
Sonra
meşələr,
dağlar,
dənizlər,
hər şeylər "OL"du,
Beləcə
dünya yarandı...

## Şairlər

Şeirlərində hər zaman
sözün ağrısından keçərlər,
söyləməyə
həqiqətin acısını
seçərlər şairlər...
Tanrı aşiqi,
eşq dəlisi olduğundan
çox vaxt sevməzlər
şairləri...
Dostu çox, sirdaşı az,
bostanı daşlı,
könlünün gözü yaşlı olar

şairin...
Bəzən də xəbislər
elə bilərlər
kiminsə yerinə doğulub,
kiminsə yerini tutub,
ya da kiminsə qazanacağı
uğuru qazanıb.
Yavanlığı ürəyinin yağı,
şeiri ömrünün çırağı,
dünyanın dərd ortağı
olan şairlər...
Bəzən yazan əlinin sınması,
gözünün kor olması,

istedadının yoxa çıxması
arzulanar şairin...
Qəfil bir ölüm
dəyişər hər şeyi...
Hörmətə, şöhrətə ucalar şair...
Nekroloqlar, uydurulmuş
xatirələr asar özünü
qəzetlərdən...
Həsəd aparar adam
dünən qısqanılana,
qarğanana...
Ölüm bəxtəvərliyə
qaldırar şairi...

Dərindən nəfəs alar
bəzi başsağlığı imzalayanlar
üstündən yük götürülmüş kimi...
İçimdə bir ağrı
sızlatdı məni,
dinlədim ağrının
səsini...
Ehey, gedənlər, qalanlar,
ölümə tələsənlər,
ölümü yubananlar,
mən ölümdən iyrəndim,
yaşamaqdan bezdim.
Mən insanlıq adına,
şair urvatına görə
əl boyda daş olmaq istədim.

**Şeirin rəngi**

Bu gecə
şeirin rəngini gördüm.
Tanrı şeiri
ağappaq işıq rəngində,
ağappaq yolla,
ağappaq təbəssümlə
göndərmişdi.
Hər sətir ağappaq
işıq saçan közdü...
İçimə dolduqca
yol göründü, yol açıldı.
Sonra o yolla söz

doğuldu,
söz yarandı.
Söz vərəqin
üzünü ağartdı,
sonra, sonra
şeir sözü
rənglədi,
cilaladı...
Sözdən
ağappaq almaz
yarandı,
asıldı könlümüzdən,
gözəlləşdi içimiz.
Olanlar, qalanlar,

qürbətlər, ayrılıqlar,
sevib unudulanlar,
kədərdən ağlayanlar
ağappaq işıqla
boylandılar şeirdən.
Tanrı sətir-sətir
yeni doğulmuş
körpə kimi
gülümsündü üzümüzə,
göndərdiyi
işıq töhfəsindən,
ağappaq şeirdən...

**Şeir yazılacaq…**

İçimdə ünvanı bilinməyən həsrət,
dilimin ucunda
dərdimi çatdırmağa aciz söz…
Sözün içində
ümidin qoruduğu köz…
Qələm maşa,
hey qurdalayır içimin közünü.
Yana-yana,
dözərək yaşayır ürək,
yeni söz doğulacaq deyə.

Nə gecə bitir, nə şeir dünyaya gəlir.
İçimdə həsrətin odladığı
köz-köz yanıq yeri…
göynədir məni.
Gecəmi,
axtardığım sözə yetmək məsafəmi
uzun eləmə, İlahi!
Sabahacan, sabahacan
söz yanğısından ölməməyə
möhlət səndən,
mədət səndən, İlahi!

## Söz yolu

Yerdənmi, göydənmi gəlir söz yolu?
Şam eylər yoluna sağ əl sol əli.
Gedərəm çiynimdə bir cüt göyərçin,
Duraram min rəngli dumanlı yolda:
Xeyirli hansıdır, hansını seçim?

Sözün qırx qapısın açıb görərəm,
Dözümüm saçımdan asılıb göyə.
Canım söz içində sehirli quşdur,
Bir igid gələcək xilas etməyə.

Açılar ömrümün köz karxanası,
Sökülər dərd yükü, söz barxanası,
Allahla aramda körpü olası
Sətir böyüdürəm ona yetməyə.

Tanrı yolçusuyam, bəxtim söz yükü,
Mənalar canımı yonar, cilalar.
Bəzən axtardığım qalar o yana,
Kiminsə itiyi qarşıma çıxar.

Daşın da, sözün də yaddaşı varmış,
Ocağın, közün də yaddaşı varmış,
Tanrının, insanın söz, yaddaşıymış,
Mən də sözdən, sirdən, daşdan göyərdim.

## Sözüm

Qoymaz bir kimsədən minnət götürəm,
Ölüm xəbərimi söz yetirəcək.
Oğuldan, uşaqdan, dostlardan qabaq
Mənim cənazəmə sözüm girəcək.

Zəif misralarım, yarımçıq şeirim
Südəmər körpətək durmaz, ağlayar.
Dərd-sərdən balamın səsi batanda
Sözüm qızım olar, məni oxşayar.

Deyər "yad ağlayar, yalan ağlayar",
Oxşayar doğmadan doğmatək məni.
Qəlbimin əkizi vəfalı sözüm
Ölümü öldürüb yaşadar məni.

Gedərəm nigaran olan-qalannan,
Qalar min dodaqda, dildə sözlərim.
Mənsiz darıxanda çiçəyə dönüb
Döşənər qəbrimin üstə sözlərim.

Qalacaq ruhumun yükü sözümdə,
O, məndən doymadı, doymadım ondan.
Mən “Ol”la gəlmişdim, “Öl”lə gedirəm,
Yaşamaq ümidim başlayar sondan.

# Dünya

## Ağlayan ağac

*(Balaca Səttar şehli bir ağacı oxşayıb, "ağlama, səni kim incidib" deyirdi)*

Gözəlin başı bəlalı,
Bir meşədən apardılar.
Bir çinarda könlü vardı,
Ayırdılar, ayırdılar.

Qurumur gözünün yaşı,
Necə ovudum kirisin?
Üz-gözünü şeh yuyubmuş,
Ağlamağı bilinməsin.

İlk gördüyüm rəngi solub
Burda elindən aralı.
İçim – qaçqın, köçkün yurdu,
Gəl, sənə də yer ayırım.

Budaqları əldi göyə,
Ağac duası yüksəlir.
Tanrım hey yerə boylanır,
Qərib hönkürtüsü gəlir.

Yurd itkini haray çəkir,
Nə fərqi – adam, ya ağac.
Taleyi Tanrı yazıbsa,
Kimdən gözləyirsən əlac?

Qəribdi burda bu fidan,
Kim gətirdi, kim bitirdi?
Məndən haray gözləməyib,
Balam ilə dərdləşirdi.

Dərd də günahdan gələndə
Ayrılıq nəhaqdan olmur.
Can yurddan əvvəl qorunsa,
Qəriblik də bəxtdən olmur.

Kiri, göz yaşın duzludur,
Torpaq şoranlığı sevməz.
Məni torpağın həsrəti,
Səni ayrılıq dincəltməz.

## Alın yazım – 1

Taleyim Tanrı əliylə
Yazılıbdır məndən öncə.
Hər adam bir sətir imiş
Əcəl torpağa gömüncə.

Qarışınca torpaqlara
Sətir-sətir göyərəcək.
Kimi qara tikanlara,
Kimi laləyə dönəcək.

Azalıb qələm, mürəkkəb,
Allah da yorulub, yazmır.
Min ildir doğranan torpaq
Qismətimi bəxtə yazmır.

Dünyanın bir ucunda qəm,
Bir ucunda çal-çağırdı.
Bir zalımın qələmindən
Alın yazısı axırdı.

Vətən də alın yazımız,
Qorumasaq, pozulacaq.
Alından pozulan yazı
Günahlara yozulacaq.

## Alın yazım – 2

Şuşa da, Laçın da qara yazımız,
Nəyin cəzasını çəkirik belə?
Torpaq itkisinə üsyanım bitməz,
Qəbrimin üstündə ot sətirlənər.

Dəyişir dünyanın alın yazısı,
Günahı yumağa sular çatmayır.
Haqq gücə, güc haqqa uduzulanda
Dağ elə ah çəkir, qaya çatlayır.

Ağacın, çiçəyin, quşun taleyi
İnsanın əlində sual, tapmaca.
Yer də balasına qurban anatək
Sevgi gəzə-gəzə dönər möhtaca.

Danır yaradanı yazı yazanlar,
Tanrı yazısını “boş ver”ib gedir.
Silah qələmiylə dünya dağılır,
Ölümə ömürlər tuşlanıb gedir.

Bəzən də Tanrının gözəl xəttindən
Adamlar anlayar nə bir hərf, nə səs.
Qisməti göz üstə qoyulan kəsin
Əlləri quruyar, götürə bilməz.

## Qalx, ərəb, qalx!

*(Nəriman Həsənzadənin "Dəvəsi ölmüş ərəb"ə yazdığı şeirə )*
(Şərq ölkələri od içində... Qərbə köç başlayıb. Bu köç fəlakətdir...)

Qalx, ərəb, dur gedək,
uzaqlaşır son karvan.
Dur, gedək, dərdli adam,
İçindən yolu başla,
əvvəli sondan başla,
bu yazını fələk yazsa,
fələyi bağışlama,
ömrü təzədən başla.
Torpağının altı sərvət,

üstü sərvət,
varı başına dərd ərəb.
Qarşıda dörd yolayrıcı –
sağı, solu bilinməz,
Burda adamlar fərqli –
namərdi qəsdə durar,
mərdi gözə görünməz.
İşıq gələn tərəfin
iti hürən o kəndlərin
yolu qurşun səddirsə,
tələ qurulub sənə.
Hardan keçib gedəssən?
Halın, əhvalın tanış,

didərgin ruhun tanış.
Getmək xilas yolu deyil,
hər xilas yaşamaq deyil.
İçinə, özünə qayıt.
kəfən geymə, bayraq gey,
Dünyaya səslən, eheyy...
Yurda dön, elə qayıt,
özünə, evə qayıt.
Zülmün elə ağır ki,
dərdin elə tanış ki,
çəkməyə oğul gərək,
Yurda dön, yurda, ərəb.
Ölən də evdə urvatlı,

qalan da evdə urvatlı.
Yad qapı sənlik deyil,
yalmanmaq sənlik deyil,
abrın niqab altında,
bu həya Qərblik deyil.
Sənin taleyin – günəş,
Soyuq üz sənlik deyil.
Son ümid – son karvan gedir,
Tələs ümidə sarı,
tələs, tələs, dur, gedək.
Biz qaçdıqca yurd əzilir,

can qorxusu rəzillikdir.
yer ağlayır, göy ağlayır,
ev-ocaq bizi qarğayır.
Qurşun yağışı başlayır.
Yurd sondur, yurd əzəldir,
yurd üstə ölmək gözəldir.
Dur, ərəb, yurda dönək,
gözü yolda qalan var.
Yol başla Vətənə sarı,
Dur, dərdimin oxşarı,
dur, gedək, dur, yurda dönək.

## Payız etüdləri

Payızın dilində şeir yazıram,
İçimdə, çölümdə payız nəğməsi.
Yarpaq qırğınıdır, məhşər başlayıb,
Yoxdu ağacların ağlayan kəsi.

İstədim əlini tutam payızın,
Ruhunu oxşayam, dərdini böləm.
Yağışa qarışam, kimsə görməyə,
Ya da durnalara qoşulam gedəm.

Getsəm nə dəyişər, qalsam, nə bilim?
Zamanla köçəni saxlamaq olmur.
Ölümə tələsən xəstə anamtək
Payız da kövrəkdi, ayrılmaq olmur.

Bu payız fərqlimi, ruhum qəribmi?
Ya qismət, bahara yetə arzular.
İçim yarpaq-yarpaq talanıb gedir,
Bu dəli küləyi əyləyən ola.

Çinar öz yarasın sarısa belə,
Yarpaq balaları qoruya bilmir.
(İlahi, qarşıdan hələ qış gəlir)
Gecikən sevgitək bu bəyaz çiçək
Tufanı tanımır, çovğunu bilmir.

Yarpaq məzarlığı bağa gözdağı,
Ya qismət, min çiçək doğurar bahar.
Tumurcuq diləklər Tanrı töhfəsi
Bizdən güc alınca bitər sevdalar.

Həsrətin ölçüsü payızmış elə,
Qarışla, arşınla ölçülməz, demək.
Ayrılığın rəngin görmək istəyən
Saralan yarpağa toxunsun gərək.

Ağacam bu payız dağ sinəsində,
Bu payız duyulmaz sevincim, dərdim.
Ruhumu dumana, yağışa bükün,
Bahar qayıdanda, bəlkə, göyərdim.

# İnsan

**Bu ömür görüş yerimiz**

Bu ömür görüş yerimiz,
Görüşdük mən, atam, anam.
Mən Orda mələkdim, Allah,
Yerdə ADAM adlanmışam.

Bəzən yad gəlir buralar,
Ağaclar, dənizlər, çaylar.
Hanı deyilən doğmalar?
Gəlib gördüm tək qalmışam.

Bu nə yoldu, yerdə min-min,
Halalını seçmək çətin.
Sevgi niyyət, Tanrı zikrim,
Eşq oduna qalanmışam.

Zamana ömür borcluyam,
Həm savablı, həm suçluyam.
Dünyanın iki ucuyam,
Bilməm harda dayanmışam.

Bizi ötürən dünyada,
Həsrət bitirən dünyada,
Bircə sətirəm dünyada,
Min sirr ilə boyanmışam.

Mənəm sevən, mənəm seçən,
Eşqi öz boyuna biçən.
Tanrını sevdim, gedəcəm,
Yol üstündə dayanmışam.

## Darıxan adam

Qar yağıb altında qalıb,
Külək sovurub aparır.
Ruhu içində qəribdi,
Burda bir adam darıxır.

Darıxır, bir gedəni var,
Gəlsə, günəş də çıxacaq.
Sükut içini doğrayır,
Köməyə kimi çağıraq?

O, iki daş arasında
Sıxılan bir əl kimidir.
Ömrü qəmlərin girovu,
Ümidlərini kiridir.

Çiynində dünyanın yükü,
Kirpikləri gözə çəpər.
Özünü dözümdən asıb,
Ağlamır ki, kimsə görər.

Doğmaların da içində
Tənhadır darıxan adam.
Qaya gücü hey ovulur,
Dağılır darıxan adam.

Evində qərib kimidir,
Hamı yad, hər şey də özgə.
Döyür içinin qapısın –
Bir kimsə tapıldı bəlkə.

## Dualar, sevgilər

*(Həyat yoldaşı ürək əməliyyatı olan qadının dilindən)*

Daş altda sıxılan əldir ümidim,
Boğulub qalaram öz harayımda.
Uzanar dəqiqə, dayanar zaman,
Dar ağacıdı hər saat əqrəbi,
Dözüm kəndir olar, asılı qallam.

Nə zaman ölçülər, nə də ki məkan,
Ümid də, səbir də gen durar məndən.
İtər palatanın qapı-bacası,
Bir saat içində min kərə ölləm,
Təsəlli verməyə gəlmirsən nədən?

Sənin can ağrına bələnər ürək,
İlğıma döndərər dünyanı kədər,
Dedin ki, güclüsən, bəlkə, eləymiş
Əllərin əlimdə olana qədər.

Ölçüsüz, biçisiz bu doğmalığın
Bilirsə sirrini, qoy Tanrı desin.
Məni bu dünyanın təkləməyindən
Qurtara bilərdi tək sənin səsin.

Günəş istisində çovğun, boran var,
İçimdə min qışın küləyi əsir.
Əlim çarpazlanır sinəmə sarı
Görürəm ürəyin əlimdə əsir.

Əlim ürəyindən sorar "necəsən?"
Qorxulu, ağrılı cavablar sızlar.
Bu ağrı bir ömür qazancımızsa,
Paylaşaq onu da öz aramızda.

Gedişli, dönüşlü yolayrıcında
Sevgi sınağı var, dayanmalısan.
Qorxulu yuxudur bu gün olanlar,
Çalışıb yuxudan oyanmalısan.

Qayğı yanğısında əriyən ömrün
Umu-küsüsü də sevincmiş, demə.
Yaxamı dərdlərin əlinə qıyıb,
Məni tənhalığa dəyişib getmə.

Dualı göz yaşım sevgi məktubu,
Dolutək, yağıştək göy üzün döyər.
Tanrı yol göstərər göy qurşağıyla,
Ömrümə dönməyə yollar görünər.

## "Gəl gedək" deyirsən...

*(Ömür-gün yoldaşıma)*

"Gəl gedək" deyirsən, bir yerimmi var?
Yollarım uzanır özümə sarı.
Dünyanın sərhədi sözdü içimdə,
Yenə də dönəcəm sözümə sarı.

Yol var, tək varmağa ayaq getməyir,
Arzu var, içində ümid bitməyir.
Ürəyin tək məni götür, get deyir,
Gözlərin yol çəkir gözümə sarı.

Əl-ələ yol gedək, yön bilinməsin,
Əvvəlin başlayaq, son bilinməsin.
Getdiyin mənzili yol özü desin,
Yıxaq bu dünyanın kədər hasarın.

Ömrün yozulmağı, yorulmağı var,
Ələnib, durulub, sovrulmağı var,
Varın yox olmağı, yoxun varı var,
Gəl gedək, “döz” deyib dözənə sarı.

Sevgi də Tanrıdan ömür payıdır,
Sevən var, ilk gündən yollar ayırır.
Bəlkə də, ayrılıq ayrılmamaqdır,
Üz tutdum, soruşdum yüzünə sarı.

“Gəl gedək” deyirsən, sormam niyəsin,
Sevda yolçusuyuq, yollar sevinsin.
Döydüm iç qapımı – ay ev yiyəsi,
Gördüm sən gəlirsən üzümə sarı.

## Qürurum

*(Çingiz Aytmatovun "Qırmızı yaylıqlı qovağım mənim" əsərinə)*

Sevgidən ucada durar qürurum,
Yarıcan gedərəm, yardan gedərəm.
Soyuq yalanların buzunu qırıb,
Qəlbində yox olan vardan gedərəm...

Bir ömür yığdığım sərvət, var kimi
Yığıb xatirəni çıxıb gedərəm.
Əzabla qurduğum inam qalamı
Gözümün yaşıyla yıxıb gedərəm.

Nəfəsi, əlləri üstündə əsən
Bir qadın yoxluğu titrədər səni.
Bəlkə də, bir əşya itkisi kimi
Yaddaşın nə vaxtsa bitirər məni.

Son kərə qapının çırpılması da
Ömrünü-gününü alt-üst eləyər.
Hər gün qarış-qarış uzaqlaşmağın
Yol çəkən gözündə nöqtəyə dönər.

Qalmaq da, getmək də ayrılıqdırsa,
Dağılan könlümü qurmağın çətin.
Yuva qorumağa baş qarışınca
Nəyi unutmuşdu görən diqqətin?

Yanıqlar, yaralar yağışa həssas,
Gözümün yaşından için nəm çəkər.
Leysantək yağaram yuxularına
İlğım xəyallardan ümid göyərər.

Varammı, yoxammı, nə fərq eləyər,
Getməyim onsuz da arzulananmış.
Həsrətli sevginin ağrı-acısın
Yaxşı ki, ovudan qürur varıymış.

## Səsimi tanımadı atam

*Belə övladlıqmı olar,*
*Məni tanımadı atam.*
*İçimdən elə yıxıldım,*
*Gördüm ki, özümə yadam.*
*(müəllif)*

Səsim yad olunca özümü üzdü,
Dünyada yerim yox, ümid Allaha.
Halımı səsimdən duyan atamın
Bəlkə, yaddaşında mən yoxam daha?

Zəhmətə bükülü ömrün yükünü
O yenə tək çəkər, tənha daşıyar.
Küləyin "çağırışı" – yalançı ümid,
Qapıya yüyürər, bəlkə, gələn var.

Biz də daşürəkli, ildə bir kərə
Gedib gözlərini güldürə billik.
Yır-yığış başlayar yenə geriyə
Üzündə boynunu bükər yetimlik.

Yaddaşı da haqlı, incik könlü də,
Çatan pay-barxana oğul, qız deyil.
Biz qalaq o yana, anam köçəndən
Bəzən öz sözü də xətrinə dəyir.

Mən elə bilirdim illər ötsə də,
Bir ovuc gülüşüm qalar yadında.
Güləndə yanağı batan qızını
Eşidər hər xəfif yel qanadında.

Səs-küyü sükuta satılan evin
Yayda da divarı, daşı isinməz.
Atamın yaddaşı, mənim sevincim,
Anamla köç etdi, geriyə dönməz.

Hisslərin üsyanı uzansa bəzən,
Həyat qanunları boynunu burar.
Əzabla böyüdüb yola saldığın
Övladla aranda məsafə durar.

Aradan ərk itər, yollar ayrılar,
Hər övlad ocağı tale bəxşişi.
Bizi buyurmağa heç vaxt qıymayan,
İndi tək qalmağa qıyılan kişi.

Yük olmaq istəməz ata övlada –
Dünyanı vəd elə, qayğıya bələ.
Nəfəsi əl kimi çiynimizdədir,
Güc verir yaşayaq, yaşayaq hələ.

**Gedəcəm**

Bu da yollar ayrıcıdı –
Bir payızdı, bir də mən.
Hara gedib bu adamlar?
Düşdüm ömrün ətəyindən.

Əl mənim, ətək illərin,
Ha tutdum əlim sürüşdü.
Yağışda islanan duam
Göz yaşlarımla görüşdü.

Pəncərədə donub qalan
Yolda qalmış göz harayı.
Payıza qoşulub getsəm,
Yıxılar ömür sarayı.

Darıxacaq dəniz, şəhər,
Darıxacaq qapım, bacam.
Yağış olub, damla olub
Pəncərəmlə danışacam.

O kimdir mənsiz hönkürən?
Hər tərəf şehə bələndi.
Son ümiddən yol açılsa,
Ayrılıqlar çəkiləndi.

## İçindən talanan qadın

Varını, yoxunu,
inamını, qürurunu
taladılar.
Ömrünü yalana satdılar.
Əvəzində əyarı
ucuz bir həyat
verdilər sənə.
Göz yaşların gecələr
ömrünü yudu,
səhərlər bəxtəvər görünəsən deyə
göz yaşının parıltısını –
dözüm mükafatını

qulağından, boynundan
asdın,
göz yaşının nəmi
kiflətdi bəxtini.
Duymasınlar deyə
gülümsədin həmişə
yalan şöhrətin,
yalan bəxtəvərliyin üzünə.
Amma olmadı ki,
olmadı.
Üzündən asıldı
ömrün acı dadı,
bir ömür dözə-dözə,
əzilə-əzilə

yalanlara satıldın...
Bəxtəvər görünən,
"içi özünü, çölü özgəni
yandıran",
dözümündən hər gün
özünü asan
dərdli qadın.
Soruşdularmı,
heç olmazsa, bir kərə
nələr çəkdiyini?
Dinlədilərmi
ürəyinin qəm səsini?
Ərinin yalan

təriflərinin, vədlərinin
arxasından xəyanətin
acı qəhqəhəsini necə,
eşitdinmi,
bəxtəvərliyi yalan qadın?
"Güclüsən" deyə-deyə
gücünü aldılar,
qadın olduğun üçün
dözümündən asdılar.
Dözəcəksən balan üçün,
"el nə deyər" üçün

dözəcəksən,
başqasını bir də
belə sevə bilmədiyin
üçün,
dözəcəksən sonacan,
ölüm qapıdan
girənəcən
dözəcəksən, dözəcəksən,
qadın olduğun
üçün dözəcəksən.

**Xəyanət**

Boşalan könüllər dünyanı yıxır,
Göz yaşı kirpiyə qısılı qalır.
Xəyanət laxladır yerin mehvərin,
Dünya ümidlərdən asılı qalır.

Asılar ümiddən aldanan qadın,
Göz yaşı taleyin fəryadın çəkir.
Yalan sevdaların ağır yükünü
Min kişi çəkməzdi, bu qadın çəkir.

İnam da ruh kimi, uçdu, qayıtmaz
Ha çağır, ha səslə – yollarda itər.
Xəyanət tufanı, günah ilğımı,
Sevdalı bir könlün külündə gedər!

Dağlar silkələnir, dənizlər daşır,
Yerin mehvərindən çıxan çağıdır.
Qadın gözlərində Allah ağlayır,
Qiyamət Allahın ağlamağıdır!

Hər gecə göz yaşı içini döyər,
Göynər xəyanətin ağır yarası.
Dərdinə söykənib unutmaq istər,
Tapılmaz kədərin, qəmin çarası.

Dərd ağır olanda ağlamaq olmur,
Sevgitək göz yaşı qəhətə dönər.
Talanan ruhuyla, sönən gözüylə
Yad olub evində qərib görünər.

Ev-eşik sevgisiz, ürək sevgisiz,
Doğma görünənlər yaddan yad indi.
Üz-üzə gəlməyə üz olmayanda
Yuyulmaz günahlar görən kimindi?

Toplanan illəri ömürdən çıxıb,
İnamdan, sevgidən, əzabdan çıxıb,
Gözünün önündə yadından çıxıb,
Bir naşı sevənin əlində qadın.

Kimsəyə sirr verməz, tənha əridər,
Sovrulub puç olan talan ömrünü.
İtirib gücünü daşıya bilməz,
Yaşamır, sürüyür qalan ömrünü.

## Çərçivədəki qadın

*(Bir qadın portreti önündə düşüncələr)*

Kimsən, nəçisən,
çərçivədəki qadın?
Qızılı çərçivə elə biçilib boyuna,
elə bil çərçivədə
doğulmusan,
elə bil çərçivədə
ev qurmusan.
Özgürlüyün ölçüsü,
sevginin dəyəri
çərçivə yaddaşına

sığa bildimi?
Dözüb susmaq
vərdişi bumu?
Taleyi çərçivələnmək
yaşamaqmı, ömürmü,
çərçivədəki qadın?
Gözündəki istəklərini,
ən kiçik arzunu
duyan oldumu?
Üzündən sürüşən
bir damla göz yaşını
kimin əliydi silən,
əlsiz qadın?

Sevgilərin yetməyən,
çatmayan yerində
qururun çətir olub qoruya bildimi səni,
dözümlü qadın?
Ruhun azad, üsyankar,
özün çərçivədən
dərdli-dərdli boylanarsan
gün-güzəran üzünə,
sevdiklərinin üzünə.
Kiminə həsəd, qibtə,
kiminə bəxtəvərlik ünvanıdı,

kiminə də gözdağıdı bu çərçivə...
Kiminin göz dikəcəyi,
kiminə çörək ağacısan,
ömür, yaşam ehtiyacısan,
çərçivədəki qadın.
Özünsə, gözünsə
ılıq təbəssümünlə çərçivədən,
ömürdən, gündən asılıbsan,
“Azadlıq” qışqırırsan,
“İmdad” haraylayırsan,
çərçivədəki qadın.

## İnandım qayıdacağına

Sən ağrıyla çarpışan an,
mən qorxunun içindəydim.
Yer, göy qaranlığın, soyuğun...
Ümidlərim,
dualarım göz yaşımın içindəydi.
Boylandım sənsizliyə,
havanın, günəşin, suyun
özümün içimdən boylandım,
boylandım inamla,
sevgiyə, təsəlliyə.
Gözümlə gördüm yer üzünün boşluğunu,

gözümlə gördüm
sənsizliyin necə olduğunu.
Ümidlər azaldıqca
qaranlıq uzandıqca, soyuq artdıqca,
daha çox inandım hər şeyin yaxşı olacağına,
Bu çətin səfərdən qayıdacağına,
məni tək qoymayacağına,
məni tənhalığa qıymayacağına.
İnandım qaranlıqda da
tapacaqsan

evimizin yolunu...
Dözməzsən mənim tək-tənha olduğuma,
qaranlıqda qaldığıma.
Utanıb heç kimə
deмədiyim bir şeyi
yalnız sən bildiyindən
inandım dönəcəyinə.
Axı tək sən bilirdin
mənim qorxaq olduğumu,
bu yaşda qaranlıqdan qorxduğumu.

**Cənab hakim!**

Cinayət məcəlləsinə əlavələr olunmalıdır,
Cənab hakim!
Məsələn,
o qadının dəyəri ölçülməyən itkisinin –
Ömür qatilinin cəzası necə olacaq?
Cənab hakim,
hesablayın:
Bir ömür sevinci, gülüşü, inamı
xəbərsiz-ətərsiz yoxa çıxıb,
yəni talanıb...
Səadəti, ömrünün
mənası oğurlanıb.
Əyarı ucuz, saxta evliliyi

sevgi adına sırıyıblar ona,
Aldatmaq deyirlər buna...
Qanunla
necə tarazlanır bunlar,
cənab hakim?
Ömrü, əli, qolu bağlı,
haqqı,
arzu və istəkləri
talan,
sürgün, əsirlik yaşayan,
ölü ikən diri görünən
qadından, anadan söhbət gedir...
Bənzərsiz bir cinayət var ortada...
Ədalət tələb olunur...
Cənab hakim,

hər gün ürəyindən qəddarcasına oxlanan
bu qadın, əslində, çoxdan öldürülüb,
qarşımızda duran görüntüsüdür.
Deyirlər, səbrin ən uzun kəndiriylə
özünü dözümdən asıb...
Gedib-gələn nəfəsini
övladlarına görə
Tanrıdan borc alıb,
tezliklə qaytaracaq...
Misli görünməmiş oğurluq, yalan,
qəddarcasına ölüm var ortada...
Cinayətin cəzasını,
bu qadının haqqını
kim ödəyəcək, kim,
cənab hakim?

## Adam

İçində dərdlə güləşir
İçindən üzülən adam.
Haqq nazilsə də, üzülməz,
Üzülmə, üzülmə, adam.

Qazancını paylar dinməz –
Sağ əl verər, sol əl bilməz.
Dünya yolu gedər-gəlməz,
Gedər öz iziylə, adam.

Zəhməti var, tamahı yox,
Günahından savabı çox,
Ağrıyar, “of”u, “ah”ı yox
İçində közərən adam.

Lələm gəlsin, haqqı sorsun,
Mizan-tərəzisin qursun,
Başdan başlılar otursun,
Görüm mən gözümlə adam.

Əl verdin, əlin kəsdilər,
Yol verdin, yolun kəsdilər,
Zatdan kəndirikəsiklər
Durdular üzünə, adam.

Ta oldu, keçdi oyunlar,
Həm oyunçu, həm oyunlar.
Ayağın altın oyanlar
Çatmadı dizinə, adam.

Başına çatmayan başdan,
Yoluna düzülən daşdan,
Hər zaman haqq savaşında,
Ey qalib yazılan adam.

## Şübhə

*Şübhə şeytan oyunu,*
*Şübhə olmuşdan betər.*
*O evi şübhə yıxdı,*
*Yetər şübhələr, yetər!*
*(müəllifdən)*

Taleyini yel aparar,
Gülüşün üzündən salar.
İnam verər, şübhə alar
Şübhələrdə itən adam.

Elə süzülür göz yaşı,
Nə düşünür qəlbi, başı?
Özü boyda şübhə daşın
İçində gəzdirən adam.

Közərir, alışmır, bilmir
Düz deyib, ya çaşıb – bilmir,
Özüylə savaşır, bilmir
Şübhələrə dönən adam.

Saralan, solan ülfətdi,
Adiləşən məhəbbətdi,
İtən dözüm, dəyanətdi
Eşq ocağı sönən adam.

## Kaş "yarı"lar qala

*Nə varım var, nə barxanam*
*Ömür yükü bağlamağa,*
*Allah, məni yarı öldür,*
*Yarı saxla ağlamağa.*
*(V.Səmədoğlu)*

Dost-doğma şəhərdə
dincəlməyə qoymayan,
tək qalmağa qıymayan
dostların, doğmaların
içində
adam tək yaşaya,
öləndəsə qərib şəhərin

qərib ünvanında qərib ölə…
Xəzərin qoynundan qalxan
dumana bükülüb,
ölümə qoşulub gedə...
Şəhər yerindən qalxmamış
xəbərsiz-ətərsiz itə.
Dostu kədərləndirməyə,
düşməni sevindirməyə,
küçələri qəmləndirməyə,
yoldan ötəni əyləndirməyə
qıymaya.
Ya da elə
…ölümün təmtərağından qaça,

ölməyə, qeyb ola.
Ağlamağa, ağı deməyə
nə ana axtara, nə bacı.
Hamı yuxudaykən,
balası
oyananadək,
hər şey qəfil ola...
Ya da yuxudan oyanmış kimi
ayıla.
Peşman ola başına gələnlərə.
Doğmalar o yana qalsın,
özü özü
üçün darıxa,
ayağı evinə gedən izi
üçün,

əlləri ən əziz əşyalarının
tozu üçün,
qapısının üstdəki adı,
gözü üçün,
yarımçıq vərəqdəki şeiri,
yazılmayan
sözü üçün
darıxa...
Od tutub
yana...
Peşman ola
özü özünə arzuladığına.
Qıymaya yaxınlarına,
həmişə sevincli
görmək istədiyi

balalarına.
Öz dərdini, öz qəmini,
ruhunun kimsəsizliyini
heç kimə qıymaya,
dərdini ağlamağa
heç kimi qoymaya,
özü özünü bildiyi kimi
oxşaya, ağlaya.
Kaş doğmalara yetməyən
yarı yol kəsilsə də,
yarı yol qala...
Kaş getsək də,
köçsək də,
hər şeydə
"yarı"lar qala.

## Məktub

*(Könülün dilindən)*

Torpağın üzü soyuqdur,
Gəl qəbrimə üz söykəmə.
Soyuqlarsan, baxan olmaz,
Yoxluğumu dərd eyləmə.

Yüz fikir borcu ödəməz,
Harayına yetməz əlim.
Göz yaşın yolu uçurdu,
İndi hansı yolla gəlim?

Ən kiçik umu-küsü də
Dözülməyən dərddi indi.
Ölüm də qismət, yazıdı,
Elə bilmə üz döndərdim.

Sevgi, diqqət innən belə
Daha çox gərəyim olar.
Burda sevincdən ölərəm
Bilsəm orda sevənim var.

Qoyub gəldiyim evimdə
De hər şeyim düzənlimi?
Qoyma uşaqlar ağlasın,
Dağlayırlar ürəyimi.

Burda ayrılıq fəslidir,
Baharı da soyuq olur.
Mən dönməyə can atdıqca
Sonuncu körpü yox olur.

Gizli sözüm vardı sənə,
Deməyi unutdum, getdim.
İçimdə bir qız ağlayır,
Səsini neyə bənzətdim.

Dilimə gələn, gəlməyən
İndi hər şey etirafdı.
Soyuq yel əsdi arada,
Əcəl aldı, yer apardı.

Bura günəşsiz ölkədir,
Qaranlıq çöküb qəlbimə.
Sarı çiçəklər göndərsən,
İşıq gələr gözlərimə.

Torpağın üzü soyuqdur,
Gəl qəbrimə üz söykəmə.
Soyuqlarsan, baxan olmaz,
Yoxluğumu dərd eyləmə.

**Saxla**

Ömrüm bir qürbət boşluğu,
Sevdalı bir məktub yolla.
Bəlkə, qayıdıb gələrəm,
Qəlb evini bomboş saxla.

Ümidin itən yerindən,
Dərdlərin çətin yerindən,
Hər şeyin bitən yerində –
Barı gözündə yaş saxla.

Sevmək ömrün qəm işiymiş,
Eşqi ağıla kim dəyişmiş?
Qəlbim sınıq şüşə imiş,
Əllərində yavaş saxla.

Məndən sənə uzanar yol,
Sevgimizdən yaranar yol,
Mənsizlikdən usanar yol,
Məni yola yoldaş saxla.

Bir əl əlimi kəsirmiş,
Bir əl üstümdə əsirmiş,
Əllər dua güzgüsüymüş,
Əli ələ qardaş saxla.

İtmişəm öz içimdə mən,
Kimdir güzgüdən görünən?
Məni məndən alıb gedən,
Qayıtmağa bir “kaş” saxla!

Yolunda öldüyüm adam,
Öyüb-öyündüyüm adam,
Qatarı itən durnayam,
Çevrilməsin o daş, saxla!

## Məni özümdən soruş

*(Sinif yoldaşım Sevdaya)*

Məni kimsələrdən sorma,
Məni gəl özümdən soruş.
Sözlərimdi dost-sirdaşım,
Görməsən, sözümdən soruş.

Elə sən görən adamam,
Amma min il yaşamışam.
Boşalan torpaq yükünü
Ürəyimdə daşımışam.

Can da borcdu, əmanətdi,
Öz yerini dəyişəcək.
Ömür almasız nağılmış –
Sonda ayrılıq düşəcək.

İş-gücümü soruşursan,
Ürəkdən söz qazıyıram.
Tanrı əllərimdən tutub,
Alın yazımı yazıram.

Həyat yeni hesab dərsi,
Cəm dəyişdi baxa-baxa,
Unutqanlığa acıyım,
Ya əsir gedən torpağa?

Tənha yollar yolçusuyam,
Heç nəyim yox, hər şeyim var.
Özüm halımı soraram,
Uzaq olar ən doğmalar.

Ömrün, günün sapandından,
Yaxşı ki, biz qoşa düşdük,
Xatirələr ortaq qazanc,
Görüşmüşkən tən bölüşdük.

**"Ruhani"**

Yer dağılır, göy tökülür,
Hayana düşmüşəm, qardaş?
Çağırram, Xızır yetişməz,
Borana düşmüşəm, qardaş.

Mən naşı, yol mənlik deyil,
Əl mənin, qol mənim deyil.
Bir səs "qorxma, gəldim" deyir,
Nə səs eşitmişəm, qardaş?

Dağ uçurum, dərə selli,
Saz bələdçi, yolum bəlli,
Bir sim üstə, el min əlli,
Elimə düşmüşəm, qardaş.

İçim talan yurd yeridir,
Çalma, ümidim əridi.
Pirim səsdən yol göyərtdi,
Yolla görüşmüşəm, qardaş.

Dərd başımda burum-burum,
Çal, güc alıb mən də durum.
Sağ sıldırım, sol uçurum,
Bu dərddə bişmişəm, qardaş.

“Ruhani”dən yol ağarar,
Haqq arayan haqqa varar,
Gedənlərdən nə xəbər var?
Sənə güvənmişəm, qardaş.

## Bu uçurumdan qayıt geri

(*Ağ ölümün qurbanlarına)*

*Hər övlad insana Tanrı bəxşişi,*
*Taleyin yazısın tərsə yazan kim?*
*Bəzən bir günahın dağınıq yolu*
*Min doğma insanın içindən keçir.*

*Günah ağacından yellənən ömrün*
*Günəşli yoluna tövbələr açıq.*
*Sınan doğmaların, dönük dostların*
*Tanrı sevgisiylə qarşısına çıx.*
*(müəllif)*

Nə dərddir ki, tək çəkirsən, gizlədirsən,
Göz önündə saralırsan yarpaq-yarpaq.
Gülüşünün qəm boyası, iniltisi
Sönən ümidlərinə tutmayır çıraq.

Hardan başlar günahlara aparan yol?
Yuva yıxır, ev uçurur tamah əllər.
Bir yaxşılıq imarəti dağılanda
Şadlıq qurur pis niyyətlər, bəd əməllər.

Bu kədəri ovutmağa kimlər gəlsin?
Çırpın, oyan, uçurumdan qayıt geri.
Öz içindən ən işıqlı yolu başla,
Bu savaşda yenməlisən sən zəhəri.

Bu yollarda qazanan kim, udan kimdir?
Öz nəfsindir bu cəzanı kəsib sənə.
İzin vermə bəxtin səndən üz döndərə,
Bir gün qəmlər sərhəd çəksə taleyinə.

## Qardaşım Kefli İsgəndərə birinci məktub

Sən keflisən, qardaş,
düz, ya əyri,
nə desən, inanan tapılmaz.
Mənə de bildiklərini,
tək çəkmə bu millətin dərdini,
qədrini bilən olmaz.
Bir də, bu dərd köhnə dərddir,
sağalmaz.
Əziz qardaş, xəbərin var?
Xudayar bəy kəndxudalıqdan
milyoner olub.
Neylədi, latın əlifbasını

öyrənə bilmədi,
indi kitab yazdırıb,
professor olmaq eşqinə düşüb.
Dərd elə köhnə dərddi.

Şeyx Nəsrullah şəhərin mərkəzində
ofis tikdirib.
Ölü diriltmir, pul dirildir.
(Bilir axı, xəbərimiz var, ölü dirilmir).
Nazlını ata-anası deyil,
Rusetə gedən əri
özü şeyxlə tanış edib.
Görürsən, dərd elə
köhnə dərddi.

Sadəcə eni, uzunu,
bir az da licimi dəyişib.

Sənin yerinə indi
Məmmədhəsən əminin oğlu
əcnəbi dil öyrənir –
ərəb dili yox, ingilis dili.
Eşidib “Socar” ağıllıları
xaricə oxumağa göndərir.
Təzə bir dərd
kişiləri təngə gətirib.
“Gender bərabərliyi” deyib,
aləmə car çəkir.
Sən oxumuş oğlansan,

ağlın nə kəsir?
Teleqrafçı Baxşəli yadında?
20 il sonra indi o da
qaçqın haqqını tələb edir.
Deyirlər,
Avropa Məhkəməsinə
məktub da göndərib
(əvvəl, yadındamı,
o kəndin adamları
Həzrət Abbasa
məktub göndərirdilər).

Hamının məsləhət yeri
Mirbağır ağa elmi atıb.

Çindən mal gətirib,
ömrünü-gününü topdan satır.
Pərinisə də
"hürriyyət"in mənasını öyrənib.
"Eurovision"a səsi çatmadığından
sponsoru onu
"Toylar kraliçası"na göndərib.
Bax,
dərd elə köhnə dərddir,
ANLAMAQ dərdi.
Sən çox fikir eləmə.
bir də, bacın qurban,
ta içmə…

## Qardaşım Kefli İsgəndərə ikinci məktub

Salam, qardaş!
Yenə nə sıxıntın var?
Yuxumda elə qəmliydin ki,
elə bil gəmilərin batıb.
Sənə demişdim axı,
çox fikir eləmə,
özünü qoru.
İnfarkt yaman çoxalıb...
Bir də ki,
sənə qurban,
hamının dərdi sənə qalmayıb ki?

Xəbərin var,
Xudayar bəy kirli
arxalığını çıxarıb,
indi "Zilli"dən geyinir.
Zəmanə dəyişib axı...
Zeynəb arvadın inəklərinin
puluna firma açıb.
Deyirlər nə fikri varsa,
dünən firmadan uşaq evinə yardım aparıb.
Amma darvazadan içəri
buraxılmayıb.
"Dövlət sağ olsun" deyiblər.
Yenə "təəccübləndirmə" oyunu başlayıb.
Arvadına, qızı Gülsümə "Hermes" alıb.

“Ziyalılığın statusudur” – deyir.
Görəsən, “ziyalı” deyəndə nə anlayır?
Dünən sənin kitabını bizdən aldı.
Məclislərdə ağıllı görünsün deyə
cib dəftərinə yarı kirillə
bir-iki cümlə yazdı.
Görürsən nə gülünc haldır?
Xudayar bəy də,
Şeyx Nəsrullah da
qız-gəlinlərinə məclisdə viski süzürlər,
adına da
“avropalaşmaq” deyirlər.
Hacı Baxşəli indi
hüquq müdafiəçisidir.

Guya aldananların,
hüququ pozulanların
haqqını tələb edir.
Xudayar bəyin arvadı
oğurlanan səadətini,
kəsilən diqqətini,
qadın, ana haqqını tələb edir.
Dodağı silikonlu qıza
alınan maşını, evi geri istəyir.
Görürsən, köhnələn dərd
elə hey təzələnir.
Məmmədhəsən əminin
ulağının əvəzinə verilən evi,
sən demə, on adama satıblar.
Kişini yenə aldatdılar.

Aldananlar məhkəməyə
üz tutdular.
Deyirlər, Aşura günü
Zeynəb arvadın
qarğışı yağış yağdırdı.
Bax, qardaş, bizimki bizdən keçib,
sən çox fikir eləmə.
Bir söz deyəcəm,
amma gülmə!
Deyirlər, o gün pirdə
o kəndin qadınları
nəzir paylayıb
dua edirmişlər:
"Allah, balalarımız yazıqdı,
bizim kişilərə bir də
çox pul vermə".

## Qardaşım Kefli İsgəndərə üçüncü məktub

Salam, qardaş! Necəsən?
Ürəyim dolanda gözüm
səni axtarır.
Sən də heç sirr verməli deyilsən,
ya ürəyinə salıb fikir eləyirsən,
ya da içəndə açıb hamıya deyirsən.
İnanıram, bunu deməzsən.
Yadındamı,
sənə ilk şeirimi
oxuduğum gün?
Hamıdan çox
sən sevinmişdin!

“Şükür, Allah, millətimin
qızına verdiyin qələmə” – demişdin.
Sonra gözün doldu.
İllər keçdi,
qardaş, bilirsən
nələr oldu?
Sən “millətin qızı” dedikcə
mən də millətin dərdini
anlamağa, yazmağa çalışdım.
Gördüm ki,
millətin çəkdikləri
Təpədən dırnağa içimdə bitib.
Qələmim nə yazdısa,

hər sətirindən Vətən
boy verdi.
Bir cahili də mənə dərs verdi,
xəbər göndərdi –
"Çox fəallaşıb, "millət, xalq" deyir.
Nə etmək istəyir?" – dedi.
Bilirsən, qardaş, mən o yana,
gözündən ailəmə, evimə
tuşlanan oxu gördüm.
İnandım, imkanı olsa,
çağırar, Allahı tənbeh edər,
mənə verdiklərinə...
Ya da Məmmədhəsən əmi kimi
Həzrət Abbasa məktub yazar,

qələmimin sınmasını arzular.
Amma çox şükür ki,
İmanı olmadığından, inamı da yoxdur.
Bir də deyirlər, o,
“Bismillah” yerinə kilsə
xoru oxuyur.
Görürsən, qardaş,
mən dərddən yaza-yaza
kimsə də mənim dərdimi çəkirmiş.
Gör ey... İşə bax!
Bir ev dərdi çəkilməli
xəstəsi, gici bir yana,
adamın dərdi mənim
qələmimləymiş...

**Xəbərlər efirdədir**

“Axşamınız xeyir”,
efirdə xəbərlərdir:
Hər gün
dünya evimə gəlir.
Xəbərlər fərqli,
xəbərlər dərdli.
Dağılan tifaqıyla
sirli Bağdad, dərdli Kərkük
göz qarşısında...
Somalidə aclıq biçir adamları...
Dünya tamah davasında,
indicə dağılacaq elə bil...

Ürəyim – əli qapı arasında
qalan adamın əli...
Yer kürəsi
şeytan əlində silkələnir...
Mən darıxdıqca,
havadan qan iyi gəlir.
Öz dərdimiz
elə köhnəlib,
kif atıb,
Suriyada körpələrə
atılan güllənin
barıt iyi burnuma gəlir.
Hər torpaqda qırğın-qiyamət,
insan şeytanla

əl-ələ tutub.
Göy üzü silah tüstülü,
göy üzü qara buludlu,
barıt qoxulu...
Allah tüstüdən boğulur...
Gözünü yumub,
görmür yer üzünü...
Görsəydi, yerində oturdardı
ədalət adıyla
öz ocağında məzluma
divan tutanı...
Yer kürəsi şar,
siyasət əlində
iynə tutan dəcəl uşaq...

Sancmaq istəyir – partlasın
Yer kürəsi...
Əl saxlayın, əli iynəlilər,
əli sancaqlılar!
Əl saxlayın, yekə adamlar,
əl saxlayın, ürəksiz robotlar...
İnsan ölümüylə əyləncə axtaranlar!
Dayanın, dayanın, dünya dağılar!
Yenə xəbərlər, xəbərlər!

Müvəqqəti atəşkəslər...
Sabah “Minsk qrupu”ndan gəlirlər...
Ən son xəbərlər...
Deyirlər yeni planetlər var,
deyirlər Marsda həyat var...
Tanrım,
insan öz evini yıxıb,
yeni Vətən axtarır.
Söylə, orada kimə yer olar?

# Vətən

## Ay qapı bağlayan

*(Taleyi bağlı qapı arxasında həll edilən millətlərə)*

Bu yandan açanı mənəm,
O yandan kimdir bağlayan?
Tanrı əliylə açıram,
Dayan, ay qapı bağlayan.

Kimi bir salama yozar,
Kimi taleyinə yazar.
Bu nə dərddi, bu nə azar?
Bəsdir, ay qapı bağlayan.

Kimisi bir hayla açdı,
Kimisi duayla açdı,
Kimi də ah-vayla açdı,
Kimsən, ay qapı bağlayan?

Bu qapının cırıltısı
Min ilin qəlb sızıltısı...
Dərbənd, ya Gəncə ağrısı
Gəl açaq, qapı bağlayan.

Bu qapı gözüm qapağı,
İçi Vətənin torpağı.
Ürəyim yağı tapdağı,
Sən də bax, qapı bağlayan.

Keçmədim qapı varsa da,
Əlacı yad çarasında.
Torpaq qapı arasında
Can verir, qapı bağlayan.

Aç, keçək, görüm yol hanı?
Ovut qəmdən oynayanı.
Gözümdə qapı dabanı
Öldüm, ay qapı bağlayan.

O ağ şallı kimdi, gəldi?
Duası haqqa yüksəldi.
Yağışdan açar ələndi –
Götür aç, qapı bağlayan.

**Türkün duası**

Şükür yaratmaq eşqinə,
Torpağa, dənizə şükür.
"Türküm" deyib arxa olan
Tanrım, hamımıza şükür.

Səndən qopub hara gəldik?
Sənlə vara-vara gəldik.
Din vardı, imana gəldik,
Gecəyə, gündüzə şükür.

Köç başladı, elin köçü,
Tale payı, Boğaziçi.
Göy sevgisi, türk sevgisi,
Şükür, "BİR"imizə şükür.

Yol verib ərkan göstərdin,
Haqq üçün divan göstərdin,
Dərk yolu irfan göstərdin
Şükür elmimizə, şükür.

Göy niqablı, bəyaz atlı,
Atı qızıldan qanadlı,
İstanbul eşqli, soraqlı
Uca pirimizə şükür.

Yenə yönüm düşdü bu yaz,
İstanbulun canı boğaz.
Taleyinə məni də yaz,
Deyim, sevgimizə şükür.

## Türkün gəlişi

Tanrı dağlarından vardım,
Göndərdilər, mən də gəldim.
Göy bayrağım, yer gəmimdi,
Yol verdilər, mən də gəldim.

Dünya Tanrı biçimdəydi,
Haqqın nuru içimdəydi.
Böyük kimdi, kiçik nəydi,
Söylədilər, mən də gəldim.

Yol açıldı, köçə varam,
Dünyanı haqqa çağıram.
Zülmətə işıq aparam,
Əlimdə nur, mən də gəldim.

Verilən nə, aldığım nə,
Güvən verdim güvəninə.
Çadırdan Dünya evinə
Karvan gedər, mən də gəldim.

İlkdə sonam, sonda ilkəm,
Tanrı eşqi, haqq görküyəm.
Göydən gələn göy türküyəm,
Mən seçildim, mən də gəldim.

Tanrı məndə, mən ondayam,
Yaxındayam, uzaqdayam,
Vaxtın qızıl taxtındayam,
Zaman söylər: “Mən də gəldim”.

İçimdən bir yol ağardı,
Yol müqəddəs, yol doğmadı.
Savalan pirim, ağamdı,
Harayladı, mən də gəldim.

## Üstünə

*(Hər ay təqvimdə matəm günü görüncə, millətimizin taleyinə bir daha ağladım...)*

*Torpağın ağrısı canımda hər gün,*
*Bir parça Şuşayam, közərir külüm.*
*El köçüb, yas qurub Xarı bülbülüm,*
*Gedək yurd yerində qalan üstünə.*
*(müəllif)*

Hər ay təqvimdə qanlı gün,
Hönkürdüm hər an üstünə.
Ölüb dərdimi göndərəm
Halıma yanan üstünə.

Yoxda vardı, varda yoxdu,
Həsrət dərd-qəmlə oxundu.
Ömür bir rəngli yuxudu,
Doğulub yalan üstünə.

Ay oğuzlar, ay ərənlər,
Səbri dözümlə yeyənlər.
“Hanı torpağım?” – deyənlər,
Gedəyin tapan üstünə.

Qara sevda, qara dərddir,
Torpaq sevgim, yurd həsrətim.
Ölənin bəxti gətirdi,
Ağlayaq qalan üstünə.

İtən yurdun səsi ollam,
Yaşayan nəğməsi ollam,
Bu taleyə asi ollam,
Gedib Yaradan üstünə.

## Çəkilin yolumdan, çəkilin

*(Minlərlə şəhid verdik... Azaldıq... Qalanlar, bir-birinizi sevə bilməsəniz belə, yurddaşınıza nifrət edib kürəyindən vurmayın. Hər dəyərli soydaşınızı bir ovuc Vətən torpağı kimi qoruyun, sevin!)*

Məndən ruhumu alanlar,
Yolumda qanqal olanlar,
Məni mənə qısqananlar,
Çəkilin yolumdan mənim.

Bir fağırın balasıydım,
Tanrı söz demək öyrətdi.
Çayırın, otun içindən
Çiçək donunda göyərtdi.

Dağla, daşla danışmağı,
Yollara yoldaş olmağı,
Qanda yaddaş daşımağı,
Mələklər öyrətdi mənə.

Əl saxla, qardaş dediyim,
Öldürün, atmayın məni.
Bir ovuc yurd torpağıyam,
Dərdlərə qatmayın məni.

Qılıncın qında qoymayan,
Min yerə bölüb doymayan,
Fələyin sayın saymayan,
Sizdənəm, satmayın məni.

Ömür yolu bir çiləymiş,
Mənə dost gülləsi dəymiş.
Bizi torpaq dərdi əymiş,
Tək əllə tutmayın məni.

Ay gedən, nə var köçündə?
Min mən, bir mənin içində.
Dərdim var Şuşa biçimdə
Dardayam, atmayın məni.

Süd qaymağından yuxayam,
Bir acı sözdən yıxıllam.
Əvvəlmiyəm, axırmıyam –
Siz sayıb, sanayın məni.

Ey quruca "ad" olanlar,
Dost adamlar, yad adamlar,
Yeri, göyü yaradan var,
Danmayın, danmayın məni.

## Ərdəbilə gəldim

*(Yuxuda Ərdəbilə getmişdim)*

Allah, minillik həsrəti
Yığıb Ərdəbilə gəldim.
Göz yaşımı pünhan tutub,
Üzdə gülə-gülə gəldim.

Qismət bu günə düşürmüş,
Min ilin dərdi yox olmuş.
Tanrı özü qovuşdurmuş,
Bu evdən o evə gəldim.

Pirim, sultanım o işıq –
Taleyə, bəxtə yaraşıq.
Doğulmamışdan mən aşiq,
Eşq dil açdı, dilə gəldim.

Yıxılmışdım, qalxdım indi,
Zaman bəlli, vaxt nə idi?
Bura ruhumun eviydi,
Sonumdan əvvələ gəldim.

Nəyim vardı, indi yoxdu?
Yaramdakı öz oxumdu.
Bu ocağa kim toxundu?
Mənə qalan külə gəldim.

## Orada bir evim var

Orada bir evim var,
qapısını bağlayıb,
açarı ələ keçməsin deyə
ürəyimdə gizlətmişəm.
Min ildir ömrümü götürüb
o evdən səfərə
çıxmışam.
Orada mənim bir evim var,
şamlarını yanılı
qoymuşam, –
qayıdan yollarıma
işıq düşsün...

Orada mənim bir evim var,
qapısında gülləri
qayıdacağımı eşidib,
təzədən çiçəkləyib.
Yuxuda o gülləri öpən
küləklər
müjdəyə gələr,
gözləyən var,
tələs,
tələs – deyər.
O evdə bir beşiyim var,
əvvəl mənim olub,
indi körpəsiz yellənir.
Körpəliyimin ağlaması

hər gün yuxuma gəlir.
Orada bir evim var,
qapısında hörümçəklərin yazdığı
ayrılıq dastanı,
görən tapılacaqmı
bu xəttin oxuyanı?!
Orada tək qoyub gəldiyim,
gözləri yol çəkən,
məndən küsən
bir evim var.
Bağında hüt-hüt quşu oxuyar.
Deyirlər məni çağırar:
– İtən yolu tapdın?

– Yox!
– Gəlib çıxdın?
– Yox!
– Bu evin açarını tapdın?
– Yox!
Biri sual, biri cavab,
ömrüm beləcə,
otaylı, butaylı
sual-cavab.
Gərək vaxtında çatam,
çatmasam,
o qapını kim açacaq?
Çatmasam, o evdəki
divarda xalı üstəki
qılınc da paslanacaq.

O qılınc sıyrılan gün
Şuşadan Təbrizə
yol görünəcək.
Sonra, sonra
bu qılınc Tanrıdan
dualı don geyəcək,
Üçrəngli bayrağa
dönəcək,
Şuşada yellənəcək,
Savalanı öpəcək.
“Oxay!” deyəcək
bütövləşən torpaq,
sağalan torpaq...
Orda bir evim var,

Eheyy! Açılan yollar,
yaxınlar,
gözü yolda qalanlar!
Orda min ildir məni gözləyən
ruhumun evi var.
Tanrım,
möhlət ver mənə,
ömür ver mənə,
gedim, evimi görüm,
gedim evimdə
ölüm.

***

Oxşadım sözlə, ağıyla –
Dincələ torpaq yarası.
İniltisi ürək deşir,
Yanır torpağın harası?

**Qaçqın yataqxanası**

Axca-axca evləri uçulan,
uca-uca dağları yıxılan,
yurdu yağmalanan,
Qarabağın qara dərdli
adamları bu evlərdə
dərdlərindən, ümidlərindən
asılıblar.
Kədərlərindən başqa
hər şeylərini itiriblər.
Yun çırpan qadın
oğulsuz, ərsiz,
Qarabağsız yaprıxan ömrünü

döyür, çırpır.
İçində dərdləri ilə elə
həmsöhbətdi ki,
iyirmi ildir heç kimlə danışmır,
bitib-tükənib
gedənləri kimi
danışası sözləri də...
Eyvanda gözləri yol çəkən
qarımış qız da
inanmır
snayperə tuş gələn
şəhid adaxlısının
vəfasızlığına.
“Söz verib mənə,

qayıdacaq, aparacaq
məni buralardan" deyir.
Bura dərd ocağı,
hamı köz-köz əriyir.
Bu şəhid atası
taleyini lənətləyir...
Şəhid oğlunun
üç balasını böyütməyə
ömür istəmir, möhlət istəyir.
Qarabağ həsrəti
 taleyə dönür,
"gözlə, döz" deyir.
beşyaşlı uşaq
dava-dava oynayır,

əvvəl nənəsi
“uzaq olsun” deyərdi,
indi susur, dinmir.
Papirossatan
əlil oğlan
elə düzüb qutuları –
sərhəd sipəri kimi.
Alınmayan öcün,
çalınmayan zəfərin
alovu, tüstüsü
başından çıxır.
Yoldan keçənlərin
tənəsi, dərdiylə üzləşir.
Bu evin 15 yaşlı

məktəblisi
“Gözəl Qarabağ”dan,
görmədiyi yerlərdən
inşa yazacaq,
görəsən, neçə alacaq?
Bu qaçqın yataqxanasının
odaları dərd ocağıdır.
Yaşantılar ayrı,
talelər eyni.

Ucalan dualar eyni,
qayıtsın Qarabağ,
qayıtsın yurd yeri.
Tanrı da bezib,
eşitmək istəmir.
Hamı yalnız dua edir.
Qarabağ da
elə küsüb, elə küsüb,
duanı da eşitmir...

## Qar ətri

*Dağlar, mənə qar göndər,*
*Əsirgəmə, var, göndər.*
*(El bayatısı)*

Bu yaydan qar ətri gəlir,
ağaclar, meyvələr qar ətrinə bələnib.
Yayda qar ətri qərib,
qar istəyi xəstəlik gətirir.
Qonşu payı doyurmaz,
"Qar suyu ürək soyutmaz",
bu qar ətri hardan gəlir?
Çarəsiz xəstə kimdi belə,
qar istəyir?

O dağların gün görməyən quzeyində,
əl çatmayan sərt üzündə
dənər-dənər qar ağarır.
Çarəsiz bir xəstə yatır...
Gəzə-gəzə, dura-dura,
dərd karxanasında
ömür çürüdən,
yurd itirmişlər xəstə yatır.
Səbrin çat verdiyi
yerdən,
dərdin dərinliyindən
yanıq iyi gəlir.
Gözü baxa-baxa sayaqlayır:

"Anam mənə qar gətirir..."
Əlləri soyuyur, ümidləri qovrulur,
tüstülənən yanıq yeri
bir ovuc qar istəyir.
Kif atmış həsrətin, səbrin,
hər gün özünə cəza kəsməyin,
ölüb o yerdə
qar altda gömülməməyin
tənəsin, qarğışın,
kiriməyən qəlb ağrısın
su soyutmur,
qar istəyir.
Yağmalanmış, od vurulmuş ev,

ocağın alovu
içini bürüyüb.
“Qar istəyən xəstə qalxmaz”
– kimsə dillənir.
Ölüm haqq,
ölümsüz insan olmaz,
ölüm dərdlərin bitən yeri,
ağrıların son mənzili.
Görəsən, torpaq altda
dincələcəkmi
yurd xəstəsinin ürəyinin həsrət yeri,
göynəyən yanıq yeri?

## Sərhəd adamları

*(Sabir Rüstəmxanlının "Ömür kitabı"na)*

Ürəyi bütöv deyil
sərhəd adamlarının.
Sərhəd adamları fərqli,
sərhəd adamları dərdli.
Duyğularının tən ortasından
çəkilib tikanlı məftillər.
Sağ qolu o yanda,
sol qolu bu yanda,
sağ ayağı sol ayaqla görüşsə,
tikanlı məftillər didəcək onu.

Sağ gözü o yanı,
sol gözü bu yanı sevəcək.
Ruhusa bütöv yurd həsrəti ilə
göynəyəcək.
Sərhəd adamları dərdli,
taleyindən şikayətli.
Sərhəd boyu alışan lalələri
ürəyinin közü,
Arazı kor bəxtinin güzgüsü,
Xudafərini
sınan beli biləcək.
Yuxularında
quruyan Urmiya gölünə
ovcunda su daşıyacaq,

dolmasa,
göz yaşıyla dolduracaq.
Yuxusunda əlləri
uzanıb-uzanıb
Güneydən Quzeyə çatacaq.
Sərhəd adamlarının nağılları almasız,
divləri Allahsız.
Qızları muncuq düzər
iynəsiz, sapsız.
Muncuğu düzə-düzə
yetişərlər Təbrizə.
Təbriz yolu karvanlı,
sarvanı dəliqanlı.

Haqdan sevgi butalı:
“Al almağa gəlmişik,
şal almağa gəlmişik,
sarvan bir yar sevibdi,
aparmağa gəlmişik”.
Nağıl bitər, sərhəd olar.
sərhəd nağıl olmaz,
həsrət olar.
Sərhəddəki meyvələr də
ayrılıq dadırsa,

Sərhəddəki oğlanın
yarı canı o taydasa,
qovuşmaq qiyamətə qalırsa,
dünya belə qalacaqsa,
sərhəd dirəkləri
göz bəbəyimdə dursun.
Sərhəd adamları dərdli,
gördüyü yuxuları qəmli.
Qəmli yuxularımızı
Tanrı tərsinə yozsun.

## Qar yağır

*(Balaca Səttar üçgünlük qardaşını oxşayaraq, qarın yağmağını xəbər verirdi: "Bayırda qar yağıb, qaqaş, sən bilirsən qar nədir?")*

O, hardan bilsin ki, qar nədir, oğlum,
Dünya gözlərində ana bətnidir.
Qarın soyuğunu görməyib hələ
Həyat süd qoxusu, ana ətridir.

Ruhunun minillik yaddaş dəftəri
Pozulur, təzədən yazılır indi.
ORDA vəd olunan həyat doğrusa,
Yuxuda ağladan, güldürən kimdir?

Bayırda qar yağır, beşiyi isti,
Damır dam örtüyü, bir də qəlbimiz.
Ərşin bərəkəti, yerin qar payı
Əritdik günahı, savabı da biz.

Səninçün qaradam, qartopu bu qar,
Mənim həsrətimə qarlar yağacaq.
Şuşanın, Laçının ümidi donub,
Yolların gözü də buz bağlayacaq.

Torpağın həsrəti taleyə köçür,
Göynəyən içimə qar yağır səssiz.
Burda rahat ömür ölüm kimidir,
Orda xarabalar ağlayır bizsiz.

Dünya çalxandıqca beşiyi sınır,
Başqa cür yağırmış indinin qarı.
Güc haqqa çevrilir, ədalət susur,
Haqlının gücünü şeytan aparır.

Oyat yaddaşını, qoyma uyuya,
Əsir torpağına özün tale yaz.
Oğul qürurunu çəpər eyləsə,
Sərhədi pozulmaz, yurdu basılmaz.

Torpağın dərdini soyudacaq qar,
Göylərin töhfəsi çiçək-çiçəkdir,
Qar yağır, bölünən Vətən birləşir,
Qar yağır – sərhədi itirəcəkdir.

Səngərdə əsgər də keçər arzudan,
Bayrağı yelləyər Göyçəyə qədər.
Qar yağır gecənin qara üzünə,
Ruhumda son zəfər himni səslənər.

Ümidim ürəyin son teli, Allah,
Qorxuram üzülə, gedib çatmayam.
Qarabağ bağrımın qara səbridir,
Qar yağır, don vursa, səbrim çatlayar.

Səninçün qaradam, qartopudur qış.
Mənim həsrətimə qarlar yağacaq.
Şuşanın, Laçının ümidi donub,
Qələbə yazında yarpaqlayacaq.

## Belə oxuma, sən Allah

*Bu dağın o üzündə, Ceyran otlar düzündə*
*(Xalq mahnısı)*

*Dağın da, səsin də zirvəsi həsrət,*
*Özümü səsindən ümidə atam.*
*Torpaq vermədi ki, dərd verdi Allah,*
*Ölüncə, ölüncə başımı qatam.*
*(müəllif)*

Bir daş altda, bir daş üstdə,
O dağın dərdin oyatma.
Yurd yerinin ocağının
Qalan külünü dağıtma.

Zülm eləmə zülmün üstdən,
Zənguləndə yolum itdi.
Qaysaqsız torpaq yarasın
Səsin göynətdi-göynətdi.

Belə oxuma, sən Allah,
Dağ çəkmə közərən dağa.
Əl-ələ tut, gedək, qardaş,
Dağa sadağa olmağa.

Gül-çiçəyi ovxalanıb,
Bənövşələr bizdən küsüb.
Qırx incəbel güllə dağlar
Ayrılığa əsir düşüb.

Bu dağların o üzündə
Soraq gəlməz qardaşımdan.
Yarasına ürəyimin
Duz səpilər göz yaşımdan.

O dağlara dönük kimdi?
Ölən bizdik, qalan kimdi?
İçimdə qəm dağ yüküydü,
Səsin yetirdi dağlara.

Dağ çəkilibdir dağlara,
Gül-çiçəyi yaralıdır.
Ürəyim titrəyər, billəm,
O dağlara qar yağıbdır.

Belə oxuma, sən Allah,
Dağ çəkmə közərən dağa.
Əl-ələ tut, gedək, qardaş,
Dağa sadağa olmağa.

**Şadlıq evləri**

Bünövrəsi torpaq dərdinin
özülündə,
İtirilən torpaqların adı üzərində,
qəmimizin, səbrimizin üstündə
yüzlərlə şadlıq evləri ucalır...
Özülü qəmə
söykənib deyə,
qırx gün, qırx gecə
toy çalınsa
belə,
sevinclər toy sevinci deyil.

Min çeşiddə yeməklər
yemək dadmır,
şöhrət dadır,
dərd dadır.
Qəm ürəkləri elə tutub ki,
“Tərəkəmə”, “Heyvagülü”
ürəyə yatmır.
“Köçəri” çalındıqca
göz yaşlarından
yol ağarır.
Adamlar dərdlərinə hava axtarır.

"Yanıq Kərəmi" çalınır...
Kərəm yandıqca
küllər,
acı-acı gülüşlər
bir-birinə qarışır,
ara qızışır.
Adamlar Kərəm torpağın
qəm havasında yarışır.
Dünya başımıza hərlənir,
dünya dağılır elə bil.
Yer insanlardan qaçmamaqçün

dirənir, dirənir...
Dərdə bax, toxtaqlığa bax!
Şadlıq evlərinin adı
guya ovqat dəyişir...
Laçın, Şuşa, Göyçə küsür,
itirilən yurd adı
əyləncə yerinə dönür,
pul yağışında kiçilən
sərhəd keçilməz görünmür...
Torpağın naləsi eşidilməsin deyə,

şadlıq evləri
səs-səsə verir.
Çal-çağır
yaddaşı,
ölən-itən
soydaşları unutdurur...
Əlimin hər şeydən üzüldüyü
yerdən
dualarla Tanrıya
üz tuturam.

Sevginin, yaddaşın, dərdin
itdiyi,
taleyin küsdürüldüyü
yerdə
sağalmaz xəstəlik,
laqeydlik,
arsızlıq durur.

## Mündəricat

Qadın və vətəndaş ruhu ........................................................ 3

**Tanrı**

Qapına gəldim, İlahi! ........................................................ 10
Şeytan ........................................................ 13
Əməl dəftəri ........................................................ 14
Yallı ........................................................ 17

**Söz**

"OL"dan əvvəlki sözdənəm ........................................................ 24
Milyon il əvvəl ........................................................ 27
Şairlər ........................................................ 28
Şeirin rəngi ........................................................ 32
Şeir yazılacaq… ........................................................ 35
Söz yolu ........................................................ 37
Sözüm ........................................................ 39

**Dünya**
Ağlayan ağac ........ 42
Alın yazım – 1 ........ 45
Alın yazım – 2 ........ 47
Qalx, ərəb, qalx! ........ 49
Payız etüdləri ........ 54

**İnsan**
Bu ömür görüş yerimiz ........ 58
Darıxan adam ........ 60
Dualar, sevgilər ........ 62
"Gəl gedək" deyirsən... ........ 66
Qüru rum ........ 69
Səsimi tanımadı atam ........ 72
Gedəcəm ........ 76
İçindən talanan qadın ........ 78
Xəyanət ........ 83

Çərçivədəki qadın .......... 86
İnandım qayıdacağına .......... 90
Cənab hakim! .......... 93
Adam .......... 96
Şübhə .......... 99
Kaş "yarı"lar qala .......... 101
Məktub .......... 106
Saxla .......... 110
Məni özümdən soruş .......... 113
"Ruhani" .......... 116
Bu uçurumdan qayıt geri .......... 118
Qardaşım Kefli İsgəndərə birinci məktub .......... 121
Qardaşım Kefli İsgəndərə ikinci məktub .......... 126
Qardaşım Kefli İsgəndərə üçüncü məktub .......... 131
Xəbərlər efirdədir .......... 135

**Vətən**

Ay qapı bağlayan ........................................................ 141
Türkün duası ............................................................... 144
Türkün gəlişi ............................................................... 146
Üstünə ........................................................................ 149
Çəkilin yolumdan, çəkilin ........................................... 152
Ərdəbilə gəldim............................................................ 156
Orada bir evim var ....................................................... 158
Oxşadım sözlə, ağıyla, ................................................. 164
Qaçqın yataqxanası ..................................................... 165
Qar ətri ....................................................................... 171
Sərhəd adamları........................................................... 175
Qar yağır .................................................................... 180
Belə oxuma, sən Allah ................................................ 184
Şadlıq evləri ............................................................... 188

**Sona Vəliyeva**

# Dünya Tanrı biçimdədir

**Mətbəənin direktoru:** **Elman Qasımov**
**Dizayner:** **Mətanət Əliqızı**
**Korrektorlar:** **Lətafət Səmədova**
**Elsevər Muradov**

Çapa imzalanmışdır: 07.04.2017.
Formatı 64x70 1/16. Həcmi 12,5 ç.v.
Sifariş № 10. Tiraj 500

“Zərdabi LTD” MMC mətbəəsi
Tel: (012) 514-73-73, mob. (050; 070) 344 76 01
e-poçtu: zerdabi_em@mail.ru